# SİMVOLİSTLƏRİN QİBTƏ EDƏCƏYİ, NEOREALİSTLƏRİN ÖYÜNƏCƏYİ HEKAYƏ

## *(Ədib deyə, müraciət etdiyim professor Rəhim Əliyevin "İlan" hekayəsi üzərinə dşüncələrim...)*



*Qurban Bayramov,*
*tənqidşi-ədəbiyyatşünas, dosent*

Bu başlıqda "simvolistlər", "neorealistlər" anlayışlarını önə çıxarmağım səbəbsiz deyil. Rəhim Əliyevi biz əlahiddə olaraq həmişə tənqidçi, nəzəriyyəçi, axtarışda olan ədəbiyyatşünas, ədəbiyyat tarixçisi kimi tanımışıq. Profesordur, filologiya elmlər doktorudur, AMEA-nın Nizmi Gəncəvi adına Ədəbiyyat İnstitutunun çox lazımlı tədqiqat şöbəsinin, Xalq Yazıçısı, akademik Mirzə İbrahimovun təşəbbüs və təkidi ilə təsis edilmiş "Cənubi Azərbaycan Ədəbiyyatı" şöbəsinin müdiridir və Mirzə müəllimdən gələn ənənəni yeni tərzdə inkişafına ləyaqətlə əməl edir...

Rəhim Əliyev həm də, ədibdir, nasirdir, maraqlı, cəlbedici roman, povest və hekayə müəllifidir... Onun bədii yaradıcılığına "Xoruzun oğlu", "Yük otağında möcüzə" hekayəsindən bələdəm və müntəzəm izləmişəm. Vaxtilə onun yaradıcılığı haqqında "Müasir Azərbaycan nəsrində feminizm və yaxud professor Rəhim Əliyev neorealist yazıçı obrazında." ( Avanqard.az. saytı, "Kredo" qəzeti, 09.10.2015, say.41(849), s.05.- 1-ci məqalə; "Kredo" qəzeti, 16.10.2015, say 42(850), s.5, 7. 2-ci məqalə) məqaləsini də yazmışam...

Ədibin povest və hekayələrindən ibarət "Göndərilməmiş teleqr.m" (1984) və Zülmətdə çəhrayı" (2014) kitabları, "Bütövlənməyən borc" (1995), "Qoşulub qaçmayan qız" (1917), "Tağ ev" (2022) romanları oxuculara təqdim edilibdir. Hamısı oxunaqlı və orjinal mövzularda yazılmış ədəbi nümunələrdir. Yəni, görünən dağa nə bələdçilik?!..

Sonuncu "Tağ ev" romanı Bakıda 1820-1920 illərdə - bir əsrə formalaşmış Azərbaycan burjua sinfinin faciəli taleyinə həsr olunub. Mən bu romanı "Bir əsrə bərabər ömürün faciəsi" də adlandırardım... Lakin romandakı obrazların taleyi inersiya ilə 1959-cu ilə qədər gəlib çıxır... Romanın qəhrəmanları bolşevizm tərəindən məhv edilən məşhur burjua ziyalılarıdır, onların xələfləridir...

Romanda Nuru Paşa, Ə. Topçubaşov, M.Ə.Rəsulzadə, N.Nərimanov, H.Sultanov, L.Mirzoyan, Ə.Əhmədov, Mirzə Bala kimi tarixi şəxsiyyətlərin də surətləri var. "Tağ ev" romanının ictimai siqlətini artıran cəhətlərdən biri də, hələ də dərindən, hərtərəfli, yerli-yataqlı, obyektiv araşdırılmamış bir dövrünü, XIX əsrin sonu, XX əsrin əvvəllərini əhatə edən Azərbaycan tarixinin ən dramatik zaman kəsiyini bədii nəsrin roman formatında obyektiv əks etdirməsidir...

Rəhim Əliyev marksist nəzəriyyə ehkamlarından imtina edən, tarixi ədəbi nəzəriyyələrə öz baxış bucağından yanaşan, klassik filologiyanın və semiotikanın elmi prinsiplərini əsas götürən, sözün, obrazın, mifin, yazı dilinin, mətn nəzəriyyəsinin, dilin mənşəyinin izahı ilə bağlı problemləri dərindən bilən nəzəriyyəçi-alim olduğundan bu cəhət onun yazdığı nəsr əsərlərinə də - roman, povest və hekayələrinə də yansıyır...

Onun lap bu yaxınlarda qələmə aldığı "İlan" hekayəsi qarşımdadır.(Bax: "525-ci qəzet, 23.10.23.). Mövzusu, süjeti, yazı üslubu, obrazları, ideya-estetik qayəsi ilə tamamilə yeni olan, əşəddi orjinal, kanonlardan uzaq bir ədəbi möcüzə...



Hekayə belə başlayır: "Abi üç il qabaq Sabunçudakı quş bazarından beş dənə quş aldı. İri bir qutudakı quşları satan yaşlı bir kişi idi. Dedi ki, quşların yemi yoxdur, yoxsa satmazdı bunları. Abi tələsirdi, alver yeri deyildi. Quşlar da qağayı kimi tərtəmiz idilər, bilinirdi ki, əsl quşbaz satır bunları. Qiyməti də havayı kimi idi. Bir dənə də qırmızı boynugüllü, qoca erkək vardı aralarında. Alayı vaxt bu boynugüllü beş quşun qiymətinə dəyərdi. Abi pulunu verib quşları qutuyla götürüb gəldi bağa. Üç gün sonra aldığı beş quşun ikisini Zirədən gəlmiş qonağa bağışladı. Qaldı üçü. Qoca boynugüllü, onun ağ mayası, bir dənə də qaldı tək ondördlük, cırıq quyruq, ayağı çılpaq ağ maya. ...Üzü payıza bir gün Abi gördü ki, ağ ondördlük maya bir cüt yumurtlayıb. Üç həftə sonra yumurtalardan bir cüt bala çıxdı, tez də tükləndilər. Bir gün Abi gördü ki, balaların hər ikisi qırmızı boynugüllüdür! Bu, möcüzəyə yaxın idi, çünki otuz ildə onun quşxanasında hələ bir dənə qırmızı boynugüllü bala çıxmamışdı. ... Həmin gündən bu ağ maya oldu Abinin gözünün işığı. Boynugüllü balalar quşxanadan çıxan kimi Abi qanadlarını kəsdi. Anaş maya təzədən bir cüt yumurtladı, yenə bir cüt qırmızı boynugüllü ağ balalar verdi. Abi bu səfər balaların qanadını qayçılamadı. ...Yengidə yayda Abi gördü ki, ağ mayanın qırmızı boynugüllü balaları qalmır. Hərəsi bir bəhanə ilə yox olur."

Elə ilk cümlələrdən hekayə tutumlu, koloritli üslubu ilə oxucunu ələ alır və hekayənin konflikti başlayır, necə yanı, nə səbəbə ağ mayanın qırmızı boynugüllü balaları yoxa çıxır?? Oxucuya elə də, tanış olmayan situasiyada baş verənlərə marağı artır...

Bu hekayə neorealist hekayə - müşahidə edilən həyati fakt əsasında yazılan bir hekayə olmasına baxmayaraq, sözlə təsvir olunmuş həyati fakt özlüyündə simvola çevrilibdir... Yəni, qatı realist üslubda təsvir edilən həyat hadisəsi təbii axarda ümumiləşərək simvollaşır, başqa sözlə, müəllif, nasir qarşısına belə bir məqsəd qoymayıbdır ki, hadisəni simvollaşdırsın... Təsvir-təqdim olunan bədii mətnin özü təbii bir şəkildə, oxucu yozumunda simvollaşır, necə ki, Cənubi Amerikada Jorj Amadu, Qabriel Markes kimi yazıçıların əsərlərində özünü göstərən neorealizm özlüyündə simvolizm elementlərinə şevrilir...

Onu da xatırladaq ki, simvolizm XIX əsrin sonlarında naturalizmə qarşı polemikada yaranmış, bütün Qərbi Avropa ədəbiyyatlarında - Fransada - S.Malarme və A.Rembo, Belçikada - E.Verxarn, Almaniyada - Q.Qauptman, İngiltərədə O.Ouayld və s. sənətkarların əsərlərində özünü göstərmişdir... Və qəfildən, aydın səmada çaxan şimşək təkin XXI əsrin birinçi çərəyində Azərbaycan ədəbiyyatında peyda olur...

"İlan" adlandırılan hekayə elə də asan əsəyə gəlməyibdir. 2020-2023-cü illər arasında qələmə alınıb, 23.10.23-cü tarixdə "525-ci qəzet"də dərc edilib. Cənubi Azərbaycan yazıçısı Nasir Mənzuriyə ithaf olunub və belə də yazılıbdır: "Böyük ustad Nasir Mənzuriyə". Rəhim Əliyev bu cənublu ziyalıya məqalə də həsr edibdir. (Bax: Rəhim Əliyev, Yazıçı və alim Nasir Mənzuri, "Ədəbiyyat Qəzeti" jurnalı. N 29 (4884), 2013.). Lakin bunu da qeyd edim ki, Ədibin Nasir Mənzurini ustad adlandırmasını anlamadım... Amma İlanın o taylı, bu taylı Azərbayana qənim kəsilməsi simvolikasını, əlbəttə, anladım...

Hekayədəki hadisə səlist bədii məntiqlə təsvir edilir, hadisələrin gedişində və sonunda öz-özünə qeyri səlist məntiqə çevrilir. Hadisələr daxili traqik dinamizm ilə, yığcam bir tərzdə təhkiyyə edilir... Bu da ondan irəli gəlir ki, hadisə və fakta Ədib özəl yanaşır, hekayədə təsvir edlən hadisə orijinallığı və təzəliyi ilə seçılır...

Kiçik, yığcam bir hekayədə zamanın, dövrün tragik gərdişi İlan obrazında simvollaşır... Göyərçin - Boynugüllü əbreşim və Su ilanı mübarizəsi milli tale səviyyəsində ictimai-siyasi məzmuna çevrilir, milli tragediyanın nədənliyini aşkarlayır...

Xalqda bir deyim-qarğış var - toxumun kəsilsin! Adını Su ilanı qoyan, yəni az, təsirsiz zəhəri olan ilan qılafına girmiş əzazil varlıq yuvamıza soxulur, milli varlığımıza, nəsilin artımına düşmən kəsilir, toxumumuzu kəsmək niyyəti güdür, Əbreşim adlanan ağ mayanın ayağı güllü ətcəbala balalrına qənim kəsilir, Əbreşim ağ mayanın yumurtalarını oğurlayıb udur... Abi diqqətini artırır, pusquya durur, dördkünc bellə ilanı yaralaya bilir...

"Abi düşündü ki, ilanı yaralayıb, yəqin bir-iki həftəyə gözlərin arxasında haradasa öləcək. On gün sonra səhər quşxananı açanda dəhşətə gəldi: qırmızı boyugüllü balalar verən ağ maya yerdə ölmüşdü. Yaxşı baxanda gördü ki, mayanın sol budunda qan ləkəsi var. Amma mayanın üçüncü mərtəbə gözdəki bir cüt yumurtasının biri yox idi. Abi anladı: gözə girib mayanın üstündə oturduğu yumurtaları yemək istəyəndə ana quş ilanla dirəşib, yumurtalarını qorumağa çalışıb. İlan isə mayanı budundan tutub dişləyib. Bəzən su ilanlarının da dişində zəif zəhər olur. İlan mayanı dişindən buraxanda ana quş gözdən düşməli olub, sonra yerdə ölüb."

"Yengidə havalar qızanda Abi quşxanada hər şeyə göz qoyurdu: ilanın izlərini axtarırdı. Bir gün səhər

Davamı 5-ci səhifədə



# SİMVOLİSTLƏRİN QİBTƏ EDƏCƏYİ, NEOREALİSTLƏRİN ÖYÜNƏCƏYİ HEKAYƏ

Əvvəli 4-cü səhifədə

boynugüllü qara çəpin dünən yumurtadan çıxmış balalarını yerində görmədi. Deməli, ilan yenə gəlmişdi. Amma bu, başqa ilan da ola bilərdi. İlanlar yaz başı qış yuxusundan oyananda aqressiv, qorxusuz və ac olurlar. Ancaq birinci ovdan sonra sakitləşib yatmağa gedirlər. Bir gün yayın birinci bərk istisində Abi gecə ilanı quşxanadakı su qabının qapı tərəfində qıvrılıb yatmış gördü. Bu dəfə daha lampasız hərəkət eləmək qərarına gəldi. Tiyəsi dördkünc beli əlində rahatlayıb qarasına, işıqdan istifadə etmədən gördüyü yerə bərk zərbə endirmək qərarına gəldi. Ayağı ilə qapını içəri itələyib zərbə endirdi..."

Hekayədə adi göyərçin damı Vətən, ocaq, yurd simvolu olur, quşbaz Abi isə bu yuvanın, ocağın, Vətənin qoruyucusudur, hamisidir...

Bir cəhəti də qeyd edim ki, bu göyərçin saxlamaq adəti, bizdə ancaq Abşeron -Bakı mühitində intişar edib. Abşerondakı kimi göyərçin xobbisi, dəhşətli dərəcədə göyərçinə vurğun olan quşbazlar dünyanın heç bir yerində yoxdur...

Başqa diyarlarda da göyərçin saxlamaq azartında olan adamlar var... Rus həyatında olan quşbaz obrazını əks etdirən, olduqca maraqlı, Rusiyda çəkilən və "Oskar" mükafatı alan üç filmdən biri olan "Məhəbbət və göyərçinlər" (Vladimir Qurkin-sissenarist, Vladimir Menşov - rejissor. 1984) bədii filmə dəfələrlə baxmışam... Bakı mühitini, məkanını təsvir-təqdim edən nasirlərimizin əsərlərinin, demək olar ki, hamısı ilə tanışam. Amma, 50 ildən artıq yaşadığım, dəfələrlə müşahidə etdiyim göyərçin damlarını, səmada pərvaz edən, oynaq göstərən göyərçinləri heyranlıqla seyr etməyimə baxmayaraq ədib Rəhim Əliyevin "İlan" hekayəsində təsvir edilən Bakı mühiti ilə ilk dəfə idi tanış olurdum və Ədib bu mühitin anatomik təsvirinə nail olub...

Bu, təkcə dəqiq , ehtiraslı, həyat tərzi deyil, həm də, olduqca maraqlı, Bakıda yaşaya-yaşaya bakılı ola bilməməkdir, yanımızda olan, amma görmədiyimiz, yan keçdiyimiz etnogenez mənasında koloritdir... Abşeronda, Bakıda quşbazlıq peşədir, sənətdir, sənətkarlıqdır...

Sən demə, Abşeronda dünyanın heç bir yerində olmayan göyərçin cinsləri yetişdirilibdir. Məsələn, bizim Boynuqırmızı və ikitərəfi qırmızı göyərçinimiz, Əbrəş adlanan cins nadir nüsxədir və qırmızı kitaba düşüb. Əbrəşdə 7-cür rəng olur

Əsil quşbazların xüsusi qayda-qanunları da var. Hansı quşbaz qoyulmuş qaydalara riayət etmirsə, bu yoldaşına qarşı təhqiramiz hərəkət sayılır. Özünü əsl quşbaz adlandıran, göyərçin vurğunu olan adam göyərçini bəzəyinə görə yox, uçuşuna görə seçməlidir. Azərbaycandakı göyərçin saxlayanlar yaxşı uçan, pərvaz edən, təkrarsız oynağa çıxan göyərçinlərə daha çox üstünlük verirlər... Səmada oynağa çıxan heç bir göyərçin digərini təkrar etmir, yamsılamır... Cins göyərçinlər 8-11-12 saat heç bir yerə qonmadan uça, eyni zamanda 11 km də yuxarı qalxa bilirlər...

Məlumat üçün bildirək ki, cins göyərçinlər ümumən 25 il yaşayırlar. Qocalıqda kor olur, 15 yaşından sonra törəyə bilmirlər. Yaşlı quşu qəfəsə cavan quşla cüt salırlar ki, xiffət etməsin, həm də yeni cins əmələ gəlsin... Elə quşlar da var ki, onların qanadlarını kəsib ta uçurtmurlar. Çünki sübut ediblər ki, yaxşı quşlardırlar, itirə bilərlər. Ancaq onların balalarını uçurdurlar. Göyərçinlər kürt yatanda 17-21 gün sonra bala çıxmalıdır. Bir ay ərzində də o böyüyürlər...

Abşeronda 32 kənd olub və bu kəndlərin hamısında məşhur quşbazlar olub, indi də var... Abşeronda Qırmızı boynugüllü, Sarı-sarı, Əbrəş, Qırmızı şeyqa, Sarıçil, Badamlələyi, Keçilli, Beş-düş və sarə göyərçin cinsləri var. Bu adları görkəminə, xasiyyətinə görə ustad quşbazlar veribdir...

Boz rəngdə olan göyərçinlər çöl göyərçini adlanır və bəzən onu kəsib yeyirlər... Yumurtadan çıxan göyərçinin balası 2 aydan sonra çölə çıxa bilir. Deyilənə görə, göyərçinlər orucluq ayında yumurta qoymurlar. Yumurtlayanda da bala çıxmır, yumurtası lax olur. Bəzən göyərçinin yumurtasını gec dil açan uşaqlara verirlər ki, dil açsın...

Göyərçinin damlarda quşbazlar tərəfindən qurulan xüsusi xanələri olur, ancaq kişilər saxlayır,kişi sənətidir... Toylardan birində meyxanaçılar tərəfindən deyilən: "Quşu quşbaz quş edər, Quşbazı quş quşbaz edər" bu qafiyəsi, KİŞİ quşbazın ən sevimli ifadəsinə çevrilib...

Belə bir remarkadan sonra qayıdaq hekayəyə. Ədibin "İlan" hekayəsinin göyərçin qəhrəmanı Əbrəş cinsindən olan Ağmayadır. Bu da maraqlıdır ki, dilimizdə quş cinsindən olanlara xoruz, fərə deyilibdir. Abşeronda isə göyərçinin xoruzuna ərkək, fərəsinə isə maya deyirlər. Ərkək - erkək iribuynuzlu, xırda buynuzlu heyvanlara aiddir. Bakıda göyərçinlərə aid bu deyimin özü də bir fərqlilik, əlahiddəlik əlamətidir - ərkək quş!!

Üslubu və stixiyası ilə fərqlənən "İlan" hekayəsi belə bir sonluqla bitir: "Həmin gündən sonra Abi ilanı axtarırdı. Hər dəfə quşxananın qapısını açanda ilanı gördüyü yerə, qıraq sol gözə baxırdı. İlan yox idi. Hətta quşlardan biri o gözdə yumurta da qoydu, balalar çıxardı. Amma Abi hər dəfə həmin gözə nigaranlıqla baxırdı. İlan yox olmuşdu. Amma Abinin nigaranlığı yox olmadı, ilanı vurduğu yerə narahat-narahat baxmaq başında şakər kimi qaldı. Bəlkə də, ilan heç ölməmişdi..." Bu sonluq oxucunu dilemma qarşısıda qoyur, yəni onu düşünməyə vadar edir...

Bizim qəribə taleimiz var, bizə dadanan, yan-yörəmizdə, evimizin içində yaşayan ilanlar hec vədə ölmürlər, yox olmurlar... Fəndikirliklə içimizdə, aramızda sürünən, fiziki cəhətdən kökümüzü kəsmək üçün hər cür məqama əl atan, hətta balalarımızı udaraq sərməst olan bu ilan ölməyib ... Ona görə də əlimizdə dördkünc bel - dəmir yumuruq həmişə yerində olmalı, özümüz də sərvaxt, ayıq-sayıq yaşamalıyıq...

Hekayədəki Abi obrazı da simvollaşır, quşbaz kimi tanıdığımız, qəbul etdiyimiz Abi (bakılılar böyük qardaşa Abi deyərlər), yuvamızın - ocağımızın hamisi olur, bizi toxumumuza qənim kəsilən düşmənlə - İlanlarla mübarizədə əzmikarlıq göstərir, dəmir yumuruq olur, hamımızın Abisi, hamımızın hamisi olur...

Bu hekayə səni sən olmağa sövq edən ədəbi mətnlərdəndir... Bu hekayədə Ədibin - müəllifin cəmiyyətə yönləndirdiyi mesajı var - genefondumuzu əfi ilanlardan qoruyaq...

Əslində, hekayə sönük deyil, dinamikdir, yazıçı qabliyyətindən süzülən neqativ enerjilidir. Bədii, obrazları canlı təsvir etmək, sətiraltı mənə ilə dolu, həm də fəlsəfi... Yazıçı, əslində, belə olmalıdır...

Hekayədə bədii təfəkkür güclüdür, müəllifin şəxsi münasibəti - müdaxiləsi uzaqdan görsənir və üslubun unikallığı burdan da öznü göstərir... Cəmiyyətdə o qədər təzadlar var ki, bu da, simvolik fonda verilən bu təzadlardan biridir...

Təsvir edilən dramatik-faciəvi situasiya oxucunu sona qədər təlatümdə, gərgin mübarizə halında yaşadır, başqa sözlə oxucu hekayənin qəhrəmanı Abiyə çevrilir, yaxud Abi ilə birləşir, gecə-gündüz, əlində dəmir bel (silah) Əbreşimin qaravulunda olur... Burada stilizə edilən format yoxdur və mövzunun intiriqası - konflikti, yaratdığı aura hadisənin (həyatın) özündən gəlir. Oxucu axıracan bu intriqanın - konfliktin açılmasını gözləyir, ruhən rahatlıq tapmır... Həyati faciə qarşısında ruhən rahatlıq olarmı?!

Ədibin (Rəhim Əliyevin) dilinin axıcılığı, rəvanlığı, ümümi hadisələr, onlara yanaşma tərzi oxucunu özünə çəkir. Onu fərqləndirən əsas özəlliklərdən biri də adi quşxana pəncərəsindən bütöv Azərbaycan bəlasına boylanıb baxmasıdır. Və bu özəllik hər kəsə nəsib olmur... Fikrimcə, günümüzün ən aktual probleminə işıq tutan bu hekayə Müstəqillik dövrü Azərbaycan nəsrinin ən maraqlı örnəklərindən biridir...

Sağ ol, Ədib, Allah Əbreşləri, Ağmayaları, Çılpaqayaqları, Qırmızı-şeydaları, Sarıçilləri, Badamlələylilləri (Abşerondakı göyərçin cinsləridir) = cəmi bizləri (Azərbaycanı), Su ilanı qılafına girmiş Əfilərdən qorusun...